**Seyfəddin Sabir oğlu Səməndərov**

**UOT: 330.83; JEL: A19.**

# Balabəy Cabbar oğlu Həsənbəyovun iqtisadi fikirləri

***Xülasə***

*Məqalədə iqtisadi siyasət üzrə ilk azərbaycanlı professor Balabəy Cabbar oğlu Həsənbəyovun həyat yolu, elmi-pedaqoji fəaliyyəti, iqtisadi fikirləri tədqiq edilmişdir. Araşdırmalar zamanı XX əsrin 20-30-cu illərində fəaliyyət göstərən və repressiyaya məruz qalmış B.C.Həsənbəyovun Azərbaycanda iqtisad elminin və iqtisadi fikrin inkişafında rolu və yeri, repressiyaya məruz qalmasına səbəb olan fikirləri müəyyənləşdirilmişdir.*

***Açar sözlər:*** *iqtisadi siyasət, siyasi iqtisad, iqtisadi fikir, kooperativləşmə, repressiya*

## Giriş

Balabəy Cabbar oğlu Həsənbəyovun elmi və pedaqoji fəaliyyəti XX əsrin 20-30-cu illərini əhatə edir. Tədqiq edilən dövr özünün bir neçə cəhəti ilə xüsusi olaraq diqqəti cəlb edir. Hər şeydən öncə qeyd etmək lazımdır ki, keçən əsrin 20-30-cu illər postsovet məkanına daxil olan digər respublikalarda olduğu kimi Azərbaycanda da kapitalizmdən sosializmə keçid prosesləri, sosializmin əleyhdarları hesab edilən siniflərin, siyasi, sosial qrupların, ziyalıların, alimlərin, müxtəlif peşə sahibləri olan fikir və ideya sahiblərinin repressiyalara məruz qalması ilə yadda qalmışdır. İlk baxışdan elə görünə bilər ki, tədqiq edilən illər ərzində Sovet İttifaqına daxil olan milli respublikalarda elmi biliklərin populyarlaşdırılması, resursların ictimailəşdirilməsi, savadızlığın ləğvi, mədəni inqilabın həyata keçirilməsi, milli ucqarlarda elm və təhsil mərkəzlərinin yaradılması, müxtəlif millətlərin nümayəndələrindən ibarət, elmi-pedaqoji kontingentin, idarəetmədə çalışan kadrların hazırlanması prosesinin vüsətlənməsi ilə ölkəni bürüyən bir neçə kütləvi repressiya dalğaları arasında ciddi ziddiyyət vardır. Lakin əslində isə bu məsələnin ancaq zahiri tərəfidir. İmperiya mərkəzinin milli ucqarların idarə olunması, vəziyyəti nəzarətdə saxlaya bilməsi üçün yerli və beynəlmiləl tərkibdən ibarət idarəetmə strukturlarında, partiya və təsərrüfat orqanlarında çalışan, həmçinin sovet ideoloji-siyasi dəyərləri kontekstində elmi və kütləvi informasiyanın təbliği və təşviqini həyata keçirən kadrlara ciddi ehtiyacı var idi. Bu tələbin təmin olunması üçün məqsədyönlü şəkildə elm və təhsil siyasəti həyata keçirilir, bütün ölkə ərazisində və o, cümlədən milli respublikalarda elm və təhsil mərkəzləri yaradılır, kadr hazırlığı məsələsinə xüsusi diqqət yetirilirdi. Lakin çox zaman heç bir əsas olmadan kiçik şübhə, yaxud hər hansı qərəzli fikrin yaranması belə bəs edirdi ki, respublikaya və bütün ölkəyə faydalı, çox böyük potensialı olan ziyalıların, elm xadimlərinin, təsərrüfat orqanlarında çalışan dəyərli mütəxəssislərin taleyi faciəli sonluqla bitsin. Balabəy Cabbar oğlu Həsənbəyov da 30-cu illərdə repressiya dalğasının qurbanına çevrilmiş azərbaycanlı iqtisadçı alim, nəzəriyyəçi idi. Bütün bunlar bu günə qədər demək olar ki, öyrənilməyən B.C. Həsənbəyovun həyat və yaradıcılığının, iqtisadi fikirlərinin tədqiq edilməsini aktuallaşdırır.

## İqtisadçı alimin həyat yolu

Balabəy Cabbar oğlu Həsənbəyov 1899-cu ildə Gəncə şəhərində kiçik sənətkar ailəsində anadan olmuşdur. İlk təhsilini Ali İbtidai Uçilişdə almışdır. Bu müddətdə eyni zamanda atası ilə birlikdə çalışmış, 1915-ci ildə Ali İbtidai Uçilişi bitirdikdən sonra bir il işləmiş, ailə büdcəsinin formalaşmasına kömək etmişdir. O, 1916-1917-ci illərdə Tiflisdə xeyriyyə cəmiyyətinin vəsaitləri hesabına orta–texniki uçilişdə təhsil almışdır. Burada



© *Seyfəddin Sabir oğlu Səməndərov i.e.d., AMEA İqtisadiyyat İnstitutu*
© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

təhsilini 1918-ci ilin payızına kimi davam etdirmişdir. B.C.Həsənbəyov tərcümeyi-halında 1917-ci il fevral ayından 1918-ci ilin mayına kimi dövrü özünün siyasi mənsubiyyətinin müəyyənləşdirilməsi dövrü, həmçinin dövrün özünü anarxiyanın hökm sürdüyü dövr kimi xarakterizə etmişdir. O, 1918-ci ilin yazında doğma Gəncə şəhərinə qayıdır, 1918/19-cu təhsil ilində Gəncədə Gimnaziyada təhsilini davam etdirir, eyni zamanda gizli olaraq partiya işinə cəlb olunur. 1919-cu ilin payızında kamillik attestatı üçün ekstern qaydada imtahan verir.1920-ci ildə gizli fəaliyyət göstərən Dairə partiya komitəsinin üzvü olur, həmçinin gizlin keçirilən I Azərbaycan Kommunist partiyası qurultayının nümayəndəsi seçilir [1] .

B.C.Həsənbəyov aprel inqilabından sonra, Azərbaycanın sovetləşməsinin ilk illərində əvvəlcə Gəncə Şəhər İnqilabı Komitəsinin sədri, eyni zamanda "Qırmızı Gəncə" qəzetinin redaktoru, daha sonra Gəncə Quberniya İnqilabi Hərbi Tribunalının sədri təyin edilir. 1921-ci ilin sonlarından Bakıda AKP (b) Bakı Komitəsinin Təşkilat Komitəsinə rəhbərlik edir, daha sonra 1922-23-cü illərdə AKP (b) xətti ilə Moskvaya təhsil almaq üçün ezam olunur. Moskva Ali Texniki Uçilişində və I Moskva Dövlət Universitetində İqtisadiyyat şöbəsində təhsil alır (I Moskva Dövlət Universitetinin İctimai Elmlər fakültəsinin İqtisadiyyat şöbəsi). B.C.Həsənbəyov Moskva Ali Texniki Uçilişində təhsilini dayandırır, ikinci təhsil müəssisəsində təhsil almasını davam etdirir və həmin təhsil müəssisəsini bitirdikdən sonra Kommunist Partiyası İnstitutunun İqtisadiyyat şöbəsinə daxil olur, 3 il orada təhsil alır. Həsənbəyov 1925/26-cı tədris ilində ali məktəblərdə, II Moskva Dövlət Universitetində, Pedaqoji fakültədə siyasi iqtisad dərsini tədris edir, bu ali məktəb və fakültələrdə dosent vəzifələrində çalışır. Daha sonra 1929-cu ildə ÜİK(b) P MK-sının qərarı ilə Bakıya qayıdır, Azərbaycan Dövlət Universitetinin İqtisadiyyat fakültəsində, eyni zamanda Kənd Təsərrüfatı İnstitutunun İqtisadiyyat fakültələrində çalışır. Universitetdə struktur dəyişiklikləri aparıldıqdan sonra B.Həsənbəyov Azərbaycan Pedaqoji Universitetində kafedra müdiri kimi elmi pedaqoji fəaliyyətini davam etdirir.

1929-cu ildə B.C.Həsənbəyov marksist aqrarçıların I Ümumrusiya qurultayında Bakı kommunistlərini təmsil edirdi və qurultayın rəyasət heyətinin üzvü kimi bu mühüm dövlət tədbirində iştirak edir [1]. Həmin qurultayda (*1929-cu il dekabrın 27-si)* İ.V.Stalin çıxış edərək "xalq təsərrüfatı sektorları arasında tarazlıq", "sosialzimin öz-özünə bərqərar olması" və "xırda kəndli təsərrüfatının dayanıqlılığı" nəzəriyyələrini antimarksist, sağ opportunist nəzəriyyələr adlandıraraq kəskin tənqid etdi, sosialist təsərrüfatı forması kimi kolxozların təbiəti, kənd təsərrüfatının kollektivləşdirilməsi, qolçomaqların bir sinif kimi ləğv edilməsi məsələləri ilə bağlı fikirlər səsləndirdi. Məhz bu tədbir B.C.Həsənbəyovun sonrakı illərdə elmi tədqiqat fəaliyyətində istiqamətləndirici rol oynamış, onun keçən əsrin 30-cu illərdə dərc edilən əsərlərində sovet praktikasında aqrar münasibətlərə, kollektivləşdirmə məsələlərinə xüsusi diqqət yetirməyə sövq etmişdir. Həmin illərin əvvəllərində onun elmi və pedaqoji karyerasında isə müvəffəqiyyətli irəliləyişlər prosesi bir neçə il davam etdi. O, 1931-ci ildə Azərbaycan SSR Dövlət Elmi Şurası tərəfindən professor adına layiq görülür, 1930-1931-ci illərdə Bakıda Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu yaradıldıqdan sonra, İqtisadiyyat şöbəsinin direktoru, Rəyasət Heyətinin üzvü olur, eyni zamanda iqtisadçı-aspirantlar seminarına rəhbərlik edir, həmçinin 1931-ci ildə monoqrafiyası nəşr olunmuşdur. 1933-cü ildən fasiləsiz olaraq Marksizm-Leninizm İnstitutunun əsas və hazırlıq şöbələrində nəzəri iqtisadiyyatdan dərs demişdir. Deyilənlərlə yanaşı B.C.Həsənbəyov 30-cu illərdə (1932-ci il) Azərbaycan Sosialist Təsərrüfatı jurnalının redaksiya heyətinə daxil olmuş, 1935-ci ildən yenidən açılmış Azərbaycan Dövlət universitetinin rektoru olur və eyni zamanda İqtisadiyyat kafedrasına rəhbərlik edir. Bu illər ərzində fasiləsiz olaraq Ali Pedaqoji İnstitutun "Siyasi iqtisad və iqtisadi siyasət" kafedrasına rəhbərlik edir. Daha sonra B.C.Həsənbəyov Azərbaycan Şura Ensiklopediyası iqtisadiyyat və kənd təsərrüfatı şöbəsinə redaktor təyin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

edilir və sözügedən təyinat 1936-cı il mart ayının 30-da Azərbaycan KP(b)P Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırovun imzaladığı qərara əsasən baş verir. Lakin 1937-ci il B.C.Həsənbəyovun həyatı və karyerasının son ili oldu. 1937-ci il yanvarın 28-də Azərbaycan SSR XDİK Dövlət Təhlükəsizlik İdarəsi tərəfindən professor, ADU-nun rektoru B.Həsənbəyov saxta ittihamlarla həbs olunur. İttihamnamədə bildirilirdi ki, o, "əksinqilabi trotskiçi təşkilatın üzvü olub RK(b)P-yə və Sovet hökumətinə qarşı mübarizə vasitəsi kimi hökumət əleyhinə silahlı üsyan hazırlanmasında iştirak etmiş, mədəni cəbhədə ziyankarlıq işi aparmış, terrorun tərəfində durmuşdur". Bu ərəfədə həbs edilən və repressiyaya məruz qalması gözlənilən digər ziyalılarla yanaşı B.Həsənbəyova qarşı respublika hüdudlarında iftiralarla dolu, qərəzli təbliğat kompaniyası başlanmışdı.

1937-ci ildə 3-9 iyunda keçirilən AK(b) P-nin XIII qurultayında respublikanın alim və pedaqoqları və o, cümlədən Həsənbəyov ilə əlaqədar tənqidi və ittihamedici fikirlər səsləndi. Qurultayda partiyanın rəsmi mövqeyini ifadə edən bəyanatda deyilirdi ki, uzun müddət ərzində Axundov, Mustafa Quliyev, Cəbiyev, Pənah Qasımov və b. milliyətçi-burjua elementləri gənclərə təsir göstərmək istəmişlər. Bir sıra texnikum və ali məktəblərdə, xüsusən də pedaqoji məktəblərdə ziyankarlar öz işlərini genişləndirmişlər. Təkcə onu demək kifayətdir ki, Dövlət Universitetinə müəyyən vaxt ərzində Həsənbəyov kimi əksinqilabçı rəhbərlik etmişdir. Bu xalq düşməni milli ədavəti qızışdırmaq üçün azərbaycan dilində tədrisi qadağan etmişdir [6, №136, 1937]

AK(b) P-nin XIII qurultayında, iyunun 4-də axşam iclasında Azərbaycan Dövlət Universitetinin rektorluğu adından edilən çıxışda bəyan olundu ki, B.C.Həsənbəyov və onun həmfikirləri kimi şəxslərin əllərində universitetin əsas kafedraları olmuşdur. B.Həsənbəyov antisovet, şovinist təbliğatları apararaq özünün müsavat silahdaşlarına qida mənbəyi olmuş, fənləri rus dilində tədris edərək özünü müsavatçılara xoş göstərmək üçün azərbaycanlı elmi kadrları gözdən salmışdır. Çıxışda həmçinin iddia olunurdu ki, bizim azərbaycan dilində tədrisi təşkil etmək imkanımız vardır. Universitetdə əsas tələbə kontingenti Azərbaycan rayonlarındandır, kolxozçuların övladlarıdır. Tələbələr üçün mədəni yaşayış şəraiti yaradılmalı, yataqxana tikilməlidir. Xalq düşmənləri müntəzəm olaraq yeni yataqxananın tikilməsi işini pozmuşlar. Eyni zamanda universitetin vəsaitləri qondarma, düşünülmüş məzuniyyətlərə sərf edilmiş, digər şəhərlərdəki əksinqilabçılarla əlaqə yaratmaq üçün istifadə olunmuşdur. Bundan əlavə vəsaitlər yardım adı altında əksinqilabçıların bəhrələnməsi üçün istifadə olunmuşdur. Xalq Maarif Komissarlığı və AK(b) P MK-nın məktəblər şöbəsi ali məktəblərin işinə kifayət qədər rəhbərlik edə bilmir. Hazır ki, dövrdə ziyankarların fəaliyyətlərinin nəticələrinin aradan qaldırılmasına başladığımız vaxtda Xalq Maarif Komissarlığı və AK(b) P MK-nın məktəblər şöbəsi bizə yaxşı köməklik göstərmir [6, №131, 1937]. Göründüyü kimi, Həsənbəyov sovet idarəetməsi və təhsil sistemindəki nöqsanlara cavabdeh kimi ittiham olunurdu. Bütün bu ittihamlara bir sıra digər əsassız ittihamların da əlavə edilməsi xüsusi olaraq diqqəti cəlb edir. Hər şeydən öncə qeyd etmək lazımdır ki, ittihamların məntiqi baxımdan əsassızlığı, hətta əlavə dəlillərə belə ehtiyac duymandan çox aşkar hiss olunur. Burada iddia olunur ki, Həsənbəyov müsavatçılara özünü xoş göstərmək üçün milli kadrlara qarşı çıxır, tədrisi rus dilində təşkil edir, milli ədavəti qızışdırır. Əslində respublikada tədrisin rus dilində təşkili, milli kadrlara inamsızlıq ölkədə həyata keçirilən təhsil siyasətinin, ruslaşdırmanın, kosmopolit düşüncənin milli şüura təlqin edilməsi cəhdləri ilə bağlı idi. Digər tərəfdən ittihamçılar müsavat partiyasının amalları ilə rus kadet partiyasının amallarını qarışıq salmışlar. Çox təssüf ki, B.C.Həsənbəyovla bağlı başlanmış ittiham kompaniyası nəzəriyyəçi alimin məhv edilməsi ilə nəticələnir. Təxmini olaraq 20 ildən sonra, 1956-cı ildə noyabrın 5-də Həsənbəyovun həyat yoldaşı Antonina İvanovna iqtisadçı alimin bəraət edilməsi haqqında arayış ala bilir [4].



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**B.C. Həsənbəyovun elmi yaradıcılığı və iqtisadi fikirləri**

B.C. Həsənbəyov iqtisadi siyasət üzrə ( siyasi iqtisad) ilk azərbaycanlı professor olmuş, keçən əsrin 30-cu illərdə mütəmadi olaraq əsərləri nəşr edilmişdir. B.C.Həsənbəyovun dövrü və elmi ədəbiyyatda həmin dövrdə geniş elmi müzakirə obyektinə çevrilmiş mövzularla bağlı əsərləri "Azərbaycanı Öyrənmə yolu" (Azərbaycan Dövləti Elmi Tədqiqat İnstitutu yanında Azərbaycanı Öyrənən Cəmiyyətin Orqanı), "Azərbaycan Sosialist təsərrüfatı", "Bolşevik" (AKP b MK-nın orqanı) jurnallarında, həmçinin «Бакинский рабочий» (Bakı fəhləsi) və digər mətbuat orqanlarında dərc olunmuşdur. Dərc edilən əsərləri qismində "Marksın dəyər nəzəriyyəsi", "Azərbaycan kəndinin kollektivləşdirilməsi", "Milli ucqarlarda kollektivləşmənin öyrənilməsi", "Marks əmək haqqı, qiymət, mənfəət haqqında", "Leninin siyasi vəsiyyətlərinin Buxarin tərəfindən işıqlandırılması", "Milli məsələdə Lenin və Buxarın arasında fikir ayrılıqları", "Təkrar istehsal haqqında oçerklər", "Siyasi iqtisadda Lüksemburqçuluq" (üzrində çalışdığı son əsəri) əsərləri göstərilə bilər. Bu xüsusda B.C.Həsənbəyovun respublikanın dövrü və elmi mətbuat orqanlarında nəşr olunmuş elmi əsərlərinin qısa annotasiyasının verilməsi yerinə düşərdi.

İlk olaraq B.Həsənbəyovun 1929-cu ildə "Bolşevik" jurnalında dərc edilmiş "Kommunist firqəsi proqramı haqqında Buxarinin Lenin ilə mübahisəsi" məqaləsindəki dəyərləndirmələri diqqəti cəlb edir. Burada maraq doğuran məqam kapitalizm və imperializmlə bağlı Lenin və Buxarin dəyərləndirmələrindəki fərqlərə Həsənbəyovun münasibət bildirməsidir və sözügedən əsərdə xüsusi olaraq qeyd edirdi ki, sağların nəzəriyyəsi firqəyə və işçi sinfinin nəzəri cəhətdən əsaslanmış bir nəzəriyyə şəklində təqdim olunduğundan onların nəzəriyyəsinin oportunist-revisionist mahiyyətini, leninzm ilə daban-dabana zidd olduğunu bildirməyi özümüzə borc bilirik [7, s.77]. Daha sonra Həsənbəyov nəzəri cəhətdən ziddiyyətli fikirlər üzərində dayanaraq yazırdı ki, Buxarin keçirməkdə olduğumuz ictimai-iqtisadi dövri imperializm dövri adlandırır. Həm də bu dövrü, o, klassik köhnə kapitalizmin əsas xarakterik xüsusiyyətlərini tamamilə və qəti surətdə məhv etməklə təfriqə olunun bir sistem kimi anlayır.

İmperialistik monopoliya guya xüsusi sərbəst rəqabəti tamamilə məhv etmişdir. Onun irəli sürdüyü və müdafiə etdiyi mərkəzi müddəa bundan ibarət olur ki, proqramı tərtib etdikdə əsas məsələ imperializmin xarakteristikası olmalıdır [7, s.77]. Biz burada marksist nəzəriyyəsi nöqteyi nəzərindən istər imperializm dövrünün özünün istərsə də, onun imperialist dövründən əvvəlki kapitaizm ilə qarşılıqlı əlaqəsinin yanlış anlaşıldığını qeyd edə bilərik. Buxarinin fikrincə bir növ təcrid edilmiş, öz özündən törənmiş imperializm sistemi hasil olur. Sanki həmin imperializmin nə əsası, nə də mənşəyi var, o, öz-özünə mütəşəkkil bir kompleksdir. Əlbəttə belə bir təsəvvürdən sonra kapitalizm ilə onun ən yeni səhifəsi olan imperializm arasında əlaqəni və qarşılıqlılığı müəyyən etmək... qeyri mümkündür... Buxarinin köhnə kapitalizmə əhəmiyyət verməyərk ağırlıq mərkəzini ancaq imperialist dövrünü analiz etməsində təəccüblü bir şey yoxdur. Bir-birindən ayrı, öz aralarında heç bir əlaqəsi olmayan sanki iki iqtisadi inkişaf dövrü varmış, biz köhnə bir kapitalizmi keçərək başqa bir imperialist kapitalizmə daxil olmuşuq. Ona görə də biz sonuncu ilə əlaqədə bulunmadığımızdan ancaq ondan bəhs etməliyik. Biricnisi isə bizi maqrlandırmır. Nəzəriyyə praktiki cəhətdən yanlış və zərərlidir [7, s.78].

Kapitalizm və imperializmlə bağlı Leninin fikirlərinin təhlilini davam etdirərək Həsənbəyov yazırdı ki, Lenin Buxarini parlaq bir surətdə məğlub edərək fikirlərini başqa cür inkişaf etdirir "İmperializm kapitalizmin inkişafının davamı, onun yüksək bir dərəcəsidir [7, s.78] burada ondan bəhs olunur ki, imperializm kapitalizmi başdan ayağa qədər yenidən qurmur və qura bilməz, imperializm kapitalizm ziddiyyətlərini dərinləşdirir, kəskinkləşdirir, rəqabətlər, inhisarlar sərbəstliyi ilə dolaşdırır, lakin imperializm mübadiləni, bazarı, rəqabəti,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

böhranları ortadan qaldıra bilməz. Burada ondan bəhs olunur ki, imperializm kapitalizmin ona xas olan daxili qanunları əsasında keçdiyi haman yeni səhifədir, kapitalizm öz inkişafının müəyyən pilləsində kapitalın və əməyin təmərküz prosesini keçir, kapitalizmin trestlər, kartellər və s. ilə təşkilindən ibarət daxili quruluşu həmin baza üzərində dəyişilir və monopoliya dövrünə daxil olur [7, s.78]. Daha sonra Həsənbəyov sağları yeni iqtisadi siyasət dövründə yaranan yeni burjuaziyanı qorxulu hesab etməməklə, onların yavaş–yavaş sosializmə qarışa biləcəkləri fikrini tənqid edir, bu fikirlərin solların ideyalarının məntiqi inkişafı olduğunu göstərir, Buxarinin VIII qurultayda səpdiyi zərərli toxumların cücərtisi kimi təqdim etmişdir [7, s.84].

B.Həsənbəyov "Azərbaycanı Öyrənmə yolu" (Azərbaycan Dövləti Elmi Tədqiqat İnstitutu yanında Azərbaycanı Öyrənən Cəmiyyətin Orqanı) jurnalında dərc edilən "Marksın qiymət nəzəriyyəsi siyasi iqtisad elminin ən mühüm bir fəslinə aid" əsərində də leninçi mövqedən iqtisadi fikirlərini irəli sürmüşdür [3, 1930 № 1(6), s.64]. Müvafiq olaraq Həsənbəyovun "Azərbaycanın Sosialist Təsərrüfatı" jurnalında dərc edilən silsilə məqalələri də xüsusi olaraq diqqəti cəlb edir. Həmin məqalələrdə nəzəriyyəçi, iqtisadçı alim tərəfindən kapitalizm və sosializm şəraitində əmək və kapital arasında münasibətlər, iş qüvvəsinin təşkili və inkişaf etdirilməsi və xüsusən də milli işçi qüvvəsinin formalaşdırılması və inkişafı, kooprtaivləşdirmə ilə bağlı nəzəri dəyərləndirmələr aparılmışdır, qərb və sovet iqtisadi və təsərrüfatçılıq praktikası müqayiəsəli təhlil olunmuşdur. Belə bir zəmində B.Həsənbəyovun ABŞ-ın cənub ştatlarında pambıq təsərrüfatı ilə Azərbaycanda sovet dövründə pambıq təsərrüfatlarındakı mövcud vəziyyətin müqayisəli təhlili ilə bağlı dəyərləndirmələri xüsusi olaraq diqqəti cəlb edir.



B.C.Həsənbəyovun "Azərbaycanda işçi qüvvəsinin təşkili və yenidən hazırlığı yolları" məqaləsi sosializm reallıqları çərçivəsində insan reurslarının, xüsusən də milli insan resurslarının formalaşdırılması, inkişaf etdirilməsi ilə bağlı təhlillərə əsaslanmışdır, bunlar nəzəriyyəçi-iqtisadçı alimin irəli sürdüyü nəzəri fikirlərin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Həsənbəyov sözügedən əsərdə yazırdı ki, şura təsərrüfatının istehsal qüvvələrinin ən ümdə hissəsi olan işçi qüvvəsini düzgün təşkil etmədən, onun geniş hüdudlarda daha da inkişaf etdirilməsi düşünülə bilməz. Daha sonra məsələnin Azərbaycan reallıqlarında çətinlikləri üzərində dayanaraq yazırdı ki, hər bir quruluşda və o, cümlədən sosialist iqtisadiyyatının da özünəməxsus işçi qüvvəsinin inkişaf qanunu vardır, bizdə işsizlik tamamilə təsviyə edilmiş, kəndli artıq kənddə ögey övlad deyil. Kollektiv təsərrüfatlar inkişaf etdikcə işçi qüvvəsindən daha səmərəli istifadə edilir. Kəndli iqtisadi cəhətdən çıxılmaz vəziyyətə düşüb oradan sıxışdırılıb kənara atılmır, əksinə kənd onun üçün daha ögey ana deyildir. Kəndlilər həvəslə kəndlərdə dayanıb məskunlaşırlar. Daha sonra nəzəriyyəçi alim respublika hüdudlarında insan resurslarından səmərəli istifadəsi və inkişaf etdirilməsi ilə bağlı məsələlərə toxunaraq yazırdı: Azərbaycana işçi qüvvəsi Rusiyanın daxili vilayətlərindən və İrandan gəlirdi. Bu Azərbaycan sənayesinin iki mühüm mənbəyi idi. Bakı və onun neft sənayesi öz inkişafının ibtidasından Azərbaycanın bütün xalq təsərrüfatı ilə üzvü olaraq mərbut deyildi. Bakı neft sənayesi xalis bir əcnəbi sənaye kimi yetişmiş və Azərbaycanın geridə qalmış feodal, patriarxal ekonomikasından daha ziyada bütün rus sənayesi ilə mərbut olmuşdu (iqtisadi, texniki, tarixi cəhətdən). Neft sənayesi ilə Azərbaycanın bütün təsərrüfat iqtisadi həyatı arasında bir təcrid, ayrılıq var idi. Həsənbəyov xüsusi olaraq qeyd edirdi ki, işçi qüvvəsinin ümdə mənbəyini biz Azərbaycanın özündə axtarmalıyıq ən mühüm siyasi və təsərrüfat əhəmiyyəti olan problem-yerli əhalidən sənaye proletariatı yaratmaq və inkişaf etdirməkdir. İlk baxışdan bu ziddiyyətli görünə bilər, sosializm dövrünə daxil olmuşuq, sosializm qururuq, digər tərəfdən milli türk proletariatı yaratmağa səy edirik. Burada

ziddiyyət dialektik-materialializm mövqeyindən baxdıqda yoxdur, belə bir fikrə hadisələri metafizikcəsinə anlamağa edən şəxslər gələ bilər [9, s.10-12, sayı 1(5), 1932].

**Kollektivləşmə və əməyin ictimai xarakteri ilə bağlı fikirləri**

Keçən əsrin 30-cu illərin əvvəllərində AzDETİ İqtisadiyyat şöbəsinin əməkdaşı kimi Həsənbəyov "SSRİ-nin milli rayonlarında kollektivləşmə prosesinin öyrənilməsinə dair" elmi tətqiqatları və elmi müşahidələrini, həmçinin əməyin sosialistcəsinə təşkili istiqamətləri üzrə araşdırmalarını daha da dərinləşdirir, elmi və dövrü mətbuatda silsilə məqalələr dərc etdirir [2]. Həsənbəyovun bu dövrdə dərc edilən "Azərbaycan kəndinin kollektivləşməsinə dair əsas məsələlər", "Azərbaycanda ellikIə kollektivləşməyə keçməyin bəzi məsələləri" və digər məqalələrində kollektivləşmənin məzmun və mahiyyəti, həyata keçirilməsi üsulları ilə bağlı nəzəri dəyərləndirmələri xüsusi olaraq diqqəti cəlb edir. Nəzəriyyəçi iqtisadçı-alim, hesab edirdi ki, kollektivləşmə həyata keçirilərkən Azərbaycanın yerli spesifik xüsusiyyətləri mütləq nəzərə alınmalıdır, kolxoz hərkatı özü-özlüyündə təbiət və cəmiyyətdə baş verən bütün hadisələr kimi mürəkkəb prosesdir, bu hərəkatın bütün qanunauyğunluqlarını düzgün anlayaraq kolxoz quruluşunun əməldə doğru həyata keçirilməsindən əldə edilən nəticə asılıdır, nəticə isə artıq dərəcədə başlanğıcdan asılıdır. O, kollektivləşməni böyük ictimai-iqtisadi hərəkat syaraq Hegelin nəticə başlanğıcdır demək olar sözlərinə istinad edərək, qeyd edirdi ki, prosesin gələcək inkişafının necə getməsi onun nəticələrinin necə olacağı artıq dərəcədə başlanğıcdan asılıdır [8, s.3, sayı 5-6 (9-10), 1932 ].

Həsənbəyovun təqdim etdiyi kollektivləşdirmə variantında hissə-hissə artellərin tədricən kolxozlara çevrilməsi və ellikIə kollektivləşmə formaları iki əsas forma hesab olunurdu. O, hesab edir ki, artel forması hissə-hissə, eləcədə ellikIə kollektivləşmə üçün əsas forma sayılır, çünki təşkilat quruluşu kimi artelə düzgün təşkilat-siyasi rəhbərlik etmək, onun daxili təsərrüfatca möhkəmlənməsi bir tərəfdən kolxozun daha yüksək formasına keçməsini, o biri tərəfdən isə hissə-hissə kollektivləşmədən ellikcə kollektivləşməyə keçməyə imkan yaradır. Ayrı-ayrı kolxozlar təşkil etməklə ellikcə kollektivləşmə arasındakı tənasübü sadə ilə mürəkkəb arasındakı tənasüb kimi təsəvvür etmək olar və edilməlidir. Həsənbəyov öz əsərlərində xüsusi olaraq qeyd edirdi ki, sadənin mürəkkəbə-hissə-hissə kollektivləşmənin ellikIə kollektivləşməyə keçməsi labüddür kollektivləşmə prosesi ayrı-ayrı kolxozların təşkil edilməsi ilə məhdudlaşa bilməz, hissə-hissə kollektivləşmə ellikIə kollektivləşmədən ayrı deyildir. Həsənbəyov kollektivləşmə məsələsində daha bir xüsusi məqama toxunaraq yazırdı ki, ellikcə kollektivləşməyə doğru hərəkət bir tərəfli, miqdarca *(kəmiyyətcə)* təsəvvür edilir. Kollektivləşmə zəruridir, mütəmadi olaraq bu istiqamətdə tədbirlər həyata keçirilməlidir, lakin bu birdən-birə mümkün deyil, kollrktivləşməyə mərhələli şəkildə keçilməsi zərurətini unudurlar [8, s.5-7, sayı 5-6 (9), 1932].

B.C.Həsənbəyov iddia edirdi ki, əməyin sosializmdə yeni təşkili forması onun sadə əmtəə istehsalı və kapitalist təsərrüfatı şəraitində təşkili formasından fərqli xarakter almasına səbəb olmuşdur. Bizim zavodlarda, fabriklərdə, sosialist müəssisələrində hər bir işçinin əməyi eyni zamanda bilavasitə ictimai əmək kimi çıxış edir. Sosialist sektorunda fərdi və ictimai əmək ikili məzmun daşımayıb vəhdət halındadır. Öz mühakimələrini davam etdirərək Həsənbəyov yazırdı ki, belə bir əhəmiyyətli məsələdə mexanist metodologiyaya əsasən fikir irəli sürənlər var. Nümunə üçün Buxarinin 1932-ci ildə fevralın 28-də Elmlər Akademiyasının təntənəli iclasında səsləndirdiyi fikirlər göstərilir. Öz fikirlərini bildirərək nəzəriyyəçi-alim yazırdı ki, ictimai formasiyaların dialektik metodologiyaya əsasən dərk olunmasına əsasən demək lazımdır ki, əməyin ikili xarakteri anacaq bir formasiyaya (əmtəə-kapitalist) aiddir. Bunun əksinə olaraq antidialektik, mexanist yanaşmada bu kateqoriya bütün formasiyalara aid edilir. Həsənbəyov mexanist qarmaqarışıqlıqlarının aradan qaldırılmasının xüsusi əhəmiyyət daşıdığını da xüsusi olaraq qeyd edirdi [6, №120, 1932]



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Nəticə**

B.C.Həsənbəyovun əsərlərində səsləndirdiyi əsas nəzəri fikirlər və elmi nəticələr qismində aşağıdakıları xüsusi olaraq qeyd etmək olar: o, elliklə kollektivləşmə üsulu ilə təkamül yolunun, təsərrüfatların hissə-hissə, tədircən kollektivləşdirilməsi üsulu ilə uzlaşdırılmasını daha məntiqi və dialektikanın inkişaf qanunlarına uyğun hesab edirdi; milli insan resurslarının daha səmərəli formalaşdırılması, inkişaf etdirilməsi (qadın əməyindən istifadə, milli ixtisaslı kadrların hazırlanması, əmək fəaliyyəti və yaşmaları üçün vacib şəraitin yaradılması) ilə sosialist-beynəlmiləlçi təsərrüfat praktikası arasında heç bir ziddiyyətin olmadığını xüsusi olaraq qeyd edirdi; Bakı və bütün Azərbaycan iqtisadiyyatının bir-birinə daha sıx inteqrasiya olmasının vacibliyi fikirlərini nəzəri arqument və praktiki dəlillərlə əsaslandırırdı.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (AR Pİİ SSA) fond 1, siyahı 8, iş 1681
2. Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycanda Elmi İrsin Toplanılması və Sistemləşdirilməsi Şöbəsi,, fond, 2, siyahı 2, saxlama vahidi 21, qutu 13, v.1-6, v.34
3. Azərbaycanı Öyrənmə yolu" (Azərbaycan Dövləti Elmi Tədqiqat İnstitut yanında Azərbaycanı Öyrənən Cəmiyyətin Orqanı), Bakı, ADETİ, 1930 № 1(6), S.64
4. Z.Bünyadov, "Qırmızı terror", Bakı, "Azərnəşr", 1993, s.100
5. B.Həsənbəyov , "Azərbaycan kəndinin kollektivləşməsinə dair əsas məsələlər" "Azərbaycanı Öyrənmə yolu" (Azərbaycan Dövləti Elmi Tədqiqat İnstitutu yanında Azərbaycanı Öyrənən Cəmiyyətin Orqanı), 1931, №2-3, s.10-19
6. «Бакинский рабочий», 1932, №120; 1937, №131, №136
7. Həsənbəyov, Kommunist firqəsi proqramı haqqında Buxarinin Lenin ilə mübahisəsi// Bolşevik", (Azərbaycan Kommunist (b) Firqəsi Bakı Komitəsi ayda bir dəfə nəşr olunan siyasi iqtisadi məcmusudur), 1929, sayı 10-11, 30 dekabr, s. 77-84
8. B.Həsənbəyiov, Azərbaycanda elliklə kollektivləşməyə keçməyin bəzi məsələləri// Azərbaycan Sosialist Təsərrüfatı Jurnalı A.S.Ş.C. Ali iqtisadi Şurasi və Dövlət Plan Komissiyonunun orqanı, 1932, sayı 5-6 (9-10), may –iyun, s. 3-9
9. B.Həsənbəyov , Azərbaycan şəraitində işçi qüvvəsinin təşkili və yenidən hazırlığı yolları// Azərbaycan Sosialist Təsərrüfatı Jurnalı A.S.Ş.C. Ali iqtisadi Şurasi və Dövlət Plan Komissiyonunun orqanı, 1932, sayı 1(5), yanvar (on ikinci il davamı), s. 7-19
10. B.Həsənbəyov, Ş.A.M.S-ın cənubunda və ASŞC-də pambıq təsərrüfatı//Azərbaycan Sosialist Təsərrüfatı Jurnalı A.S.Ş.C. Ali iqtisadi Şurası və Dövlət Plan Komissiyonunun orqanı, 1932, sayı 5-6 (9-10), may –iyun, s. 59-71


***Сейфаддин Сабир оглы Самандаров***

***Экономические мысли Б.Д.Гасанбекова***

*В статье рассматриваются жизнь, научная и педагогическая деятельность, экономические идеи первого азербайджанского профессора по экономической политике Балабека Джаббара оглы Гасанбекова. Научный и педагогический деятельность Б.Д.Гасанбеков охватывает 20-30-годы XX столетия, этот период истории характеризуется как годы репрессии. Кроме того в статье исследуется место и роль научного творчества Гасанбекова в развитии экономической науки и экономической мысли в Азербайджане .*

***Ключевые слова:*** *экономическая политика, политическая экономия, экономическая мысль, кооперация, репрессии.*



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**_Seyfaddin Sabir Samandarov_**

**_Economic thoughts of B.D. Hasanbekov_**

*The article discusses the life, scientific and educational activities, the economic ideas of the first Azerbaijan professor of economic policy Balabek Jabbar oglu Hasanbekov. The scientific and pedagogical activity of B.D. Hasanbekovs covers the 20-30th years of the twentieth century, this period of history is characterized as the years of repression. In addition, the article explores the role of Hasanbekov's scientific creativity in the development of economics and economic thought in Azerbaijan.*

***Keywords:*** *economic policy, political economy, economic thought, cooperation, repression.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 07.06.2019.***
***Çapa qəbul olunub: 10.06.2019.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az